*2 İyul Polis İşçilərinin Peşə Bayramı Günüdür*

# Xalqın asayişinin keşiyində durmaq şərəfli işdir



Azərbaycan polisinin yaranmasının 97-ci ildönümü xalqımız və dövlətimiz üçün olduqca əlamətdar tarixi dövrə təsadüf edib. Bir neçə gün bundan əvvəl Bakıda birinci Avropa Oyunları – bütün dünyanın diqqətini ölkəmizə yönəldən möhtəşəm dostluq, sülh və idman bayramı uğurla başa çatıb. Oyunların keçirildiyi, xoş və unudulmaz anlarla dolu 17 gündə bir daha sübut olundu ki, Azərbaycan dünyada ictimai asayişin mühafizəsi baxımından ən təhlükəsiz, ən etibarlı dövlətlərdəndir, burada sabitlik və əmin-amanlıqla yanaşı, həm də böyük vətənpərvərlik və möhkəm milli birlik hökm sürür.

Möhtərəm Prezident cənab İlham Əliyevin dəstəyi, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın misilsiz təşkilatçılığı sayəsində gerçəkləşən birinci Avropa Oyunları ölkəmizin durmadan artan beynəlxalq nüfuzunun və iqtisadi gücünün, regionda lider dövlətə çevrilməsinin, respublikamızda həyata keçirilən geniş quruculuq, abadlıq işlərinə, köklü demokratik, hüquqi islahatlara verilən yüksək qiymətin əyani göstəricisi oldu. Azərbaycanın hüquq-mühafizə sistemi, onun tərkib hissəsi olan daxili işlər, polis orqanları da bu ümumdövlət əhəmiyyətli tədbirin təhlükəsizliyinin təmin edilməsi, ictimai qaydaların qorunması, ölkəmizə gəlmiş çoxsaylı idmançıların və qonaqların mühafizəsi sahəsində öhdələrinə düşən mühüm və məsul vəzifələri layiqincə yerinə yetirdilər.

Özünün tarixi ənənələrini ləyaqətlə yaşadan və daha da zənginləşdirən Azərbaycan polisinin inkişafında və müasir səviyyəyə gəlib çıxmasında, onun cəmiyyətdəki yerinin və rolunun müəyyənləşdirilməsində, nüfuzunun yüksəldilməsində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri olub.

Ulu öndər respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə daxili işlər orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsini, şəxsi heyətin peşəkarlığının artırılmasını, kadr potensialının möhkəmləndirilməsini daim diqqətdə saxlayıb. Müstəqilliyin bərpasının ilk illərində Azərbaycanda bütün sahələrdə, o cümlədən polis orqanlarında hökm sürən özbaşınalıq və anarxiyaya məhz ulu öndər Heydər Əliyevin respublikanın siyasi rəhbərliyinə qayıdışı nəticəsində son qoyuldu. Cəmiyyətdə əmin-amanlığın, vətəndaşların hüquq və azadlıqlarının qorunmasında, respublikanın ərazi bütövlüyünün təmin edilməsində, xüsusən, Qarabağ uğrunda döyüşlərdə daxili işlər orqanları əməkdaşlarının, polis işçilərinin fədakarlığını yüksək qiymətləndirən Heydər Əliyev deyirdi: "Müstəqilliyi təmin etmək üçün bir neçə dövlət atributu mövcuddur. Əgər onların biri ordudursa, digəri müstəqil xarici siyasətdirsə, o birisi də Daxili İşlər Nazirliyi, polis orqanlarıdır". Məhz dahi rəhbərimizin şəxsi nəzarəti altında polis orqanları qısa bir vaxtda öz fəaliyyətini köklü şəkildə yenidən quraraq, dövlətin və cəmiyyətin göstərdiyi inam və etimadı doğrultmaq üçün səfərbər edildi. Ümummilli liderin 1994-cü ilin avqust ayında imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" fərman isə bu sahədə fəaliyyətin təşkilati-hüquqi bazasının və gələcək uğurların möhkəm təməlini qoydu.

> **"...Polis orqanları bütün hərəkətlərini qanun çərçivəsində aparırlar, bütün qanunsuz hərəkətlərə öz layiqli cavabını verirlər və verəcəklər. Heç kimdə şübhə olmasın ki, əgər kimsə yenə də bizim gücümüzü sınamaq istəsə, öz layiqli cavabını alacaqdır".**
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan Respublikasının Prezidenti.**

Ümumiyyətlə, ulu öndər Heydər Əliyev müstəqil dövlətimizə rəhbərlik etdiyi dövrdə daxili işlər orqanlarının fəaliyyəti ilə bilavasitə bağlı olan, o cümlədən insan hüquq və azadlıqlarının həyata keçirilməsi mexanizmlərini tənzimləyən 34 qanun, 100-dən çox fərman və sərəncam imzalayıb, daxili işlər orqanlarında köklü islahatlar həyata keçirib. Məhz həmin dövrdə mütəşəkkil cinayətkarlığa qarşı qətiyyətlə mübarizə aparılıb, qanunsuz silahlı birləşmələr zərərsizləşdirilib, ictimai sabitlik və asayiş bərqərar olunub. Ulu öndərin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmizdə əhalinin dinc, rahat yaşayıb-işləməsi, üçün lazımi şərait yaradılıb ki, bu da dövlətin gücünə, hüquq-mühafizə orqanlarının fəaliyyətinə ictimai inamı bərpa edib, kriminogen vəziyyətin tam nəzarətə götürülməsinə imkan verib.

Hamıya yaxşı məlumdur ki, dünya şöhrətli siyasətçi Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı dövlət müstəqilliyinin dönməzliyinə, qanunun aliliyinin qorunmasına təminat yaratdı. Ulu öndərin siyasi iradəsi sayəsində ölkəmizin iqtisadi yüksəlişinə, davamlı tərəqqisinə yol açan tarixi sənəd – "Əsrin müqaviləsi" imzalandı. Milli maraqlarımıza uyğun bir şəkildə xarici sərmayədarların respublikamızda fəaliyyətə başlaması, Xəzərin neft ehtiyatlarından səmərəli istifadə olunması Azərbaycanın iqtisadi gücünü artırmaqla xalqımızın rifahını da yüksəltdi və bu, cəmiyyətimizin saflaşmasına, cinayətkarlığa səbəb olan bir çox halların aradan qalxmasına təkan verdi. Daxili və xarici düşmənlərimizin Azərbaycanı tərəqqi yolundan döndərmək, cəmiyyətdə sabitliyi pozmaq cəhdləri Ulu Öndərin qətiyyəti sayəsində puça çıxarıldı. Bu gərgin mübarizədə, xüsusən, dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında polis orqanları xidməti fədakarlıq, dövlətçiliyimizə və onun müdrik rəhbərinə sədaqət nümunəsi göstərdilər.

Ulu öndərin rəhbərliyi dövründə cinayətkarlığa qarşı barışmaz mübarizənin nəticəsini belə bir statistika aydın bir şəkildə göstərməkdədir: 1992-ci illə müqayisədə 2002-ci ildə respublikada qeydə alınan cinayətlərin açılması 67 faizdən 94,8 faizə yüksəlmiş, ümumi cinayətlərin sayı 30,9 faiz, o cümlədən qəsdən adam öldürmələr 2,7 dəfə, quldurluq və soyğunçuluqlar 3,7 dəfə, oğurluqlar 5,2 dəfə, odlu silahın tətbiqi ilə törədilən cinayətlər 7,2 dəfə, nəqliyyat vasitələrinin oğurluğu 25 dəfə azalmışdı.

Daxili işlər orqanları əməkdaşlarının sosial müdafiəsinin təmin edilməsinə böyük diqqət və qayğı göstərən ulu öndər Heydər Əliyev bu sahədə qəbul etdiyi qərarlar, verdiyi sərəncamlar mühüm əhəmiyyət daşıyaraq, taleyini ictimai asayişin mühafizəsi kimi çətin, ancaq şərəfli bir peyəyə bağlayan insanlara həm maddi, həm də mənəvi dəstək olub. Onların yaşayış və iş şəraiti yaxşılaşdırılıb, cinayətkarlığa qarşı mübarizədə göstərdikləri hünər və rəşadət layiqincə qiymətləndirilib, yüksək dövlət mükafatlarına layiq görülüb.

İnamla deyə bilərik ki, daxili işlər orqanlarının fəaliyyətini düzgün istiqamətə yönəldən, onu xalqa və dövlətə xidmət üçün səfərbər edən ulu öndərimizin qətiyyəti və müdrikliyi sayəsində bu orqanlar müstəqil dövlətçiliyimizin sarsılmaz sütununa çevrildilər.

17 il bundan əvvəl 2 iyul gününün polis işçilərinin peşə bayramı günü təsis edilməsi tarixi ənənələrə, milli varisliyə əsaslanan ulu öndər Heydər Əliyevin asayiş keşikçilərinin fəaliyyətinə verdiyi dəyərin ifadəsidir. Hörmətli nazir, general-polkovnik R.Usubovun qeyd etdiyi kimi, çoxminli asayiş keşikçiləri nəslinin vətənə və xalqa xidmətlərini özündə əks etdirən, mərdlik, şücaət və qəhrəmanlıqlarla zəngin olan bu tarix 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin tərkibində asayişi mühafizə dəstələrinin yaradılması ilə başlanıb, həmin dövrdə polis cümhuriyyətin formalaşmasında, milli mənafelərin qorunmasında xüsusi rol oynayıb, sovet hakimiyyəti dönəmində isə ictimai-siyasi quruluşun bütün ziddiyyətlərinə baxmayaraq, böyük inkişaf yolu keçib.

Möhtərəm Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan polisi öz şanlı tarixinin yeni mərhələsini yaşamaqdadır. Ölkəmizin vüsətli sosial-iqtisadi inkişafı, regiondakı lider mövqeyi, yüksək beynəlxalq nüfuzu daxili işlər orqanlarının, polisin də fəaliyyətində köklü keyfiyyət dəyişikləri yaradır. Dövlətimizin başçısı daxili işlər orqanlarında hər bir xidmət sahəsinin müasir standartlara cavab verən səviyyəyə çatdırılması, ictimai asayişin təminində ən müasir və mütərəqqi formaların tətbiq edilməsi vəzifəsini qarşıya qoyub ki, bu vəzifələr də uğurla yerinə yetirilir.

Azərbaycan bu gün cinayətkarlığa qarşı mübarizədə və əmin-amanlığın qorunması sahəsində dünyada öncül yerdədir. Dövlət başçısı bu barədə deyib: "...Azərbaycan sabitlik adasıdır. Biz Azərbaycanı bütün bəlalardan qoruyuruq və qoruyacağıq. Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşamalıdır!" Göründüyü kimi, əmin-amanlıq və bu zəmində davamlı inkişaf ilk növbədə, möhtərəm Prezident İlham Əliyevin həyata keçirdiyi dərindən düşünülmüş düzgün və praqmatik siyasətin nəticəsində mümkünləşib. Cinayətkarlıq üçün münbit şərait yaradan yoxsulluq və işsizlik kimi ağır sosial bəlaların uğurla aradan qaldırılması məhz bu siyasətin nəticəsindədir. Ölkəmizdəki əmin-amanlıq, ictimai-siyasi sabitlik və asayişin etibarlı mühafizəsi dövlətçiliyimizin gücünün göstəricisidir. Əminliklə deyə bilərik ki, hüquq-mühafizə orqanları, o cümlədən polis öz işini xalqa xidmət, dövlətçilik, qanunçuluq, peşə andına sədaqət prinsipləri üzərində qurub.

Dövlətimizin başçısının təşəbbüsü ilə qəbul edilmiş Azərbaycan Respublikasında polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramının (2004-2008-ci illər) uğurla icra edilməsi nəticəsində polis orqanlarında zəruri struktur islahatları aparılıb, normativ-hüquqi baza təkmilləşdirilib, maddi-texniki təchizat daha da yaxşılaşdırılıb, şəxsi heyətin sosial müdafiəsi gücləndirilib, demokratik cəmiyyətdə polisin rolunun artırılması sahəsində əhəmiyyətli işlər görülüb. Asayişin, təhlükəsizliyin təminində yeni texniki vasitələrdən istifadə edilir ki, bu da cinayətkarlığın profilaktikasında çox mühüm rol oynayır. İnsanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının qorunması kimi şərəfli bir sahədə xidmət göstərən polis işçilərinin peşə səviyyəsi son illərdə daha da yüksəldilib, yüksək fiziki, mənəvi və intellektual imkanları olan gənc polis orqanlarında xidmətə qəbulu sahəsində mütəmadi iş aparılır.

Möhtərəm Prezident cənab İlham Əliyev biz polis işçilərinə tələb və etimadını belə ifadə edib: "Polis orqanlarına cəmiyyətdə çox böyük hörmət olmalıdır və bu hörmət polis orqanları tərəfindən qazanılmalıdır. Polis orqanlarının əməkdaşları özlərini insanlarla təmaslarda elə aparmalıdırlar ki, onlara hörmət daha da çox olsun. Polisə olan hörmət dövlətə olan hörmətdir. Polis əməkdaşları qanunun keşiyində dayanırlar. Polis əməkdaşları cinayətkarlığa qarşı mübarizə aparırlar. Onlar öz həyatlarını risk altına qoyurlar və vətəndaşlar bunu unutmamalıdırlar. Yəni, cəmiyyətin, ölkəmizin rahat, təhlükəsizlik şəraitində yaşamasını polis orqanları təmin edirlər. Onların çox böyük funksiyaları, çox böyük zəhmətləri vardır. Mən görülmüş bu işləri yüksək qiymətləndirirəm və bilirsiniz ki, polis orqanlarını daim müdafiə edirəm və müdafiə edəcəyəm".

Xəzər Rayon Polis İdarəsinin şəxsi heyəti də ölkə başçısının qərar və göstərişlərini, Daxili İşlər Nazirliyi rəhbərliyinin əmr və tövsiyələrini rəhbər tutaraq, ictimai qaydanın təmini, vətəndaşların təhlükəsizliyinin qorunması, qanunazidd hallara və cinayətkarlığa qarşı mübarizə sahəsində üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışır. Dövlətimizin başçısının tələblərini yerinə yetirmək, etimadını doğrultmaq bizim həm peşə, həm də vətəndaşlıq borcumuzdur. Mən polis orqanlarında çalışan həmkarlarımı peşə bayramı münasibətilə təbrik edir, çətin və şərəfli xidməti fəaliyyətdə onlara uğurlar arzulayıram!

**Azər MURADOV,**
**Xəzər Rayon Polis İdarəsinin rəisi, polis polkovniki.**